# Zəfər Amnistiyası dövlətimizin humanist siyasətinin növbəti təzahürü oldu

Şəxsiyyətin, cəmiyyətin və dövlətin qorunması, habelə cinayətlərin qarşısının alınması kimi cinayət hüquq institutları humanizm, ədalət və cinayət məsuliyyətinin mütənasibliyi prinsiplərinə əsaslanır. Konstitusiyanın 127-ci maddəsinin II hissəsində, Cinayət Məcəlləsinin 8.1 və 9-cu maddələrində təsbit olunmuş ədalət və humanizm prinsipləri cinayət törətmiş şəxsə qarşı insani münasibətlə yanaşı, cəmiyyətin və dövlətin humanist əsaslarının təmini, qanuna riayət edən vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi ilə də bağlıdır. Humanizm prinsipi təsbit edilmiş Cinayət Məcəlləsinin 9-cu maddəsinə görə, Cinayət Məcəlləsi insanların təhlükəsizliyini təmin edir.

Azərbaycanda siyasətə humanizmi baza prinsipi olaraq gətirməklə əhv və amnistiya təsisatlarının yaradılması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək dövlətimizin siyasətinin əsas prioritetlərindəndir. Ulu öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu humanizm siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edərək cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini inkişaf etdirmişdir. Bu amallara sadiq qalan Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən amnistiya aktının qəbul edilməsi ulu öndərin əsasını qoyduğu xeyirxahlıq ənənələrinin davamının əyani təcəssümüdür.

Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və iradəsi sayəsində 1995-2003-cü illərdə 77 mindən çox məhkuma şamil edilən 7 amnistiya aktı və 32 əhv fərmanı verilmişdir. Bu məhkumlardan 21 min 325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur. Azərbaycan Respublikasında 1993-cü ildən etibarən ölüm cəzasının icrasına veto qoyulmuş, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda bu cəza növü ləğv edilmiş, respublikamız dünya birliyinin tamhüquqlu subyekti kimi insan hüquq və azadlıqlarının qorunması sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulmuşdur. Bu, ümummilli lider Heydər Əliyevin humanist ideyalara sadiqliyini bir daha təsdiq edir.

Bu humanist siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi, və həyata keçirilən hüquqi islahatlar insan hüquqlarının genişləndirilməsi baxımından həbs və ya məhkum olunmuş şəxslərin hüquqlarını əhatə etməklə dövlətin sosial məsuliyyətliliyini daha da artırdı. Cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxsin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi bu siyasəti tərkib elementinə çevrildi.

Məhz bu siyasətin nəticəsində 1995-2021-ci illər ərzində 67 əfv fərmanı və sərəncamı qəbul edilib. Bunların nəticəsində 9 minə yaxın məhkum azadlığa buraxılıb. Həmin dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından sonuncuları Heydər Əliyev Fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyeva deputat fəaliyyəti dövründə təqdim edib. Nəticədə sözü gedən dövr ərzində bütövlükdə 117 min şəxsə amnistiya qərarı tətbiq olunub.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən ölkəmizdə amnistiya aktlarının qəbulu Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətinə aid edilmişdir. Respublikamızın keçmiş SSRİ-nin tərkibində olduğu 69 il ərzində Sovetlər İttifaqında cəmi 12 dəfə (1938-ci ildə 2 dəfə, 1944, 1945, 1953, 1967, 1972, 1975(2), 1979, 1982 və 1985-ci illərdə) amnistiya aktı qəbul edilmişdisə, müstəqillik əldə etdiyimiz 25 il ərzində qəbul olunan amnistiya aktlarının sayı 14-ə çatmışdır. Amnistiya aktları ölkə Konstitusiyasına, qüvvədə olan cinayət, cinayət-prosessual və cinayət-icra qanunvericiliklərinin tələblərinə uyğun qaydada qəbul və tətbiq olunur. Bu aktlarda amnistiyanın təsiri altına düşən şəxslərin dairəsi, tətbiqi qaydaları, amnistiyanı tətbiq etməli orqanlar, onların səlahiyyət dairəsi, icra müddəti kimi hallar öz əksini tapır. Amnistiya aktlarında həmçinin bu aktların tətbiqini məhdudlaşdıran hallar sadalanır. Belə məhdudiyyətlər adətən törədilən cinayətlərin ictimai təhlükəlilik dərəcəsi ilə bağlı olur və amnistiya elan olunan vaxtda dövlətin cinayət-cəza siyasətinin mahiyyətini, hansı ictimai-təhlükəli əməllərə qarşı mübarizəyə daha çox üstünlük verməsini özündə əks etdirir. Bir qayda olaraq ağır və ya xüsusilə ağır cinayət hadisələri törədən, habelə cəzaçəkmə müəssisələrində cəza çəkərkən qəsdən cinayət törədənlər, habelə əvvəllər amnistiya və ya əfvetmə aktlarına əsasən cəzaçəkmə müəssisələrində azadlıqdan məhrumetmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən cinayət törətmiş şəxslər haqqında amnistiya aktlarının tətbiqi məhdudaşdırılır.

Cinayət-hüquq nəzəriyyəsinə görə amnistiya müddətsizdir, amnistiyanın tətbiq edilməsi imperativ xarakter daşıyır, onu tətbiq edən orqanın, vəzifəli şəxsin, hətta haqqında amnistiya tətbiq edilən şəxsin iradəsindən asılı olmadan tətbiq olunmalıdır. Bu məsələdə yalnız bir halda istisnalığa yol verilir. Bu da ondan ibarətdir ki, haqqında cinayət xarakterli material və ya cinayət işi olan şəxs təhqiqat, yaxud ibtidai istintaq dövründə, habelə məhkəmədə işə baxılanadək özü barəsində amnistiya tətbiq olunmasına etiraz edərsə bu əsasla material üzrə cinayət işi başlanması rədd edilə, yaxud cinayət işinin icraatına xitam verilə bilməz. Belə hallarda Cinayət-Prosessual Məcəllə ilə müəyyən edilən normalara uyğun olaraq icraat davam etdirilməli və hökmün çıxarılması ilə başa çatdırılmalıdır. Məhkəmə araşdırılması gedişində şəxsin təqsirli olması sübuta yetərsə iş üzrə ittiham hökmü çıxarılmaqla o, amnistiyaya uyğun olaraq cəzadan azad edilməlidir (CM-nin 44.2.2-ci maddəsi). Qalan bütün hallarda təhqiqat, ibtidai istintaq orqanları və məhkəmələrin icraatlarında olan material üzrə cinayət işi başlanması rədd edilməli, yaxud şəxs haqqında cinayət təqibinə xitam verilməlidir.

2 noyabr 2021-ci il tarixdə Prezident İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olan "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar layihəsi 5 noyabr tarixində müzakirə olunub və yekdilliklə qəbul olunması dövlətimizin humanist siyasətinin növbəti təzahürü oldu.

8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarı əlaqədar orqanlar tərəfindən 4 ay müddətində icra edilməlidir. Bu qərar indiyə qədər qəbul olunmuş amnistiyalar sırasında öz əhatə dairəsinə görə ən geniş qərardır. Belə ki, o həm istintaq mərhələsində, həm də məhkəmədə olan işlərə şamil olunur. Bununla yanaşı, ədliyyə orqanları, o cümlədən penitensiar və probasiya xidmətləri tərəfindən amnistiyanın 15 minə qədər şəxsə tətbiq olunması gözlənilir. Zəfər Günü münasibətilə qəbul olunan Amnistiya aktının əsas diqqətçəkən xüsusiyyəti yalnız məhkumlar deyil, eyni zamanda barələrində cinayət təqibi həyata keçirilən digər şəxslərə də şamil edilməsidir. Əvvəlki illərdə qəbul edilmiş amnistiya aktlarından fərqləndirən daha bir cəhət hazırki amnistiya aktına əsasən isə Zəfər Gününün müstəsna əhəmiyyəti və xarakterinə uyğun olaraq yuxarıda sadaladığımız kateqoriyalarla yanaşı Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər hərbi əməliyyatlarda iştirak etmiş şəxslər, habelə bu hərbi əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, bu müharibədə iştirakla əlaqədar orden və medallarla təltif olunmuş şəxslər, Vətən müharibəsi və bundan əvvəlki dövrdə mülki əhaliyə qarşı erməni hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya şəhid olmuş şəxslərin yaxın qohumları da amnistiyanın təsiri altına düşməsdir.

44 gün davam edən Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə qəbul olunmuş bu amnistiya aktı on minlərlə azərbaycanlının 8 noyabr-Zəfər Günü sevincinə əlavə sevinc qatmışdır və Azərbaycanda həyata keçirilən humanizm siyasətinin bariz nümunəsidir.

**Süleyman SÜLEYMANOV,**
**Qəbələ rayon Prokurorunun Böyük köməkçisi, baş ədliyyə müşaviri.**

# Vaksinasiyanın nəticəsində müvəffəqiyyətlər var!

Ölkəmizdə COVİD-19 infeksiyasına qarşı aparılan vaksinasiyanın həcminin çox olması onun region ölkələri arasında birinci yerdə olduğunu göstərir. Hörmətli Prezidentimizin tapşırığı əsasında ölkəmizə kifayət qədər fasiləsiz olaraq vaksin gətirilmişdir.

Rayonumuzda COVİD-19 infeksiyasına qarşı vaksinasiya uğurla davam etdirilir. 2020 ci ilin yanvar ayının 19-dan başlanan bu tədbir mərhələlər üzrə davam etdirilmişdir. Hazırda birinci mərhələ üzrə 59000 nəfər cəlb edilməklə peyvənd vurulması planlaşdırılan əhalinin 75,9 faizi, ikinci mərhələ üzrə 55000 nəfər cəlb edilməklə 70,8 faizi, III mərhələ üzrə gücləndirici "Booster" doza vurulanların isə hələlik 21,8 faizi peyvəndə cəlb edilib.

Apardığımız araşdırmalarda müəyyən edilmişdir ki, peyvənd kursunu gecikdirmədən vaxtında alınmış şəxslər arasında yoluxma hadisələri, hətta yanaşı xəstəliyi (şəkərli diabet, ürək-damar xəstəlikləri, tənəffüs sistemi xəstəlikləri, piylənmə və s.) olanlarda belə xəstəlikdən ağırlaşma baş vermir. Onlar evdə təcrid olunmaqla, karantin müddətini başa çatdırmaqla həyat fəaliyyətini davam etdirirlər. Xəstəliyi ağır keçirənlərin bu səbəbdən xəstəxanalara göndərilənlərin, ölənlərin 90 faizi



peyvənd vurdurmayanlardır, 10 faizi isə peyvəndin bir dozasını vurduranlar və ya birinci doza ilə ikinci doza arasında böyük fasiləyə yol verənlərdir. Beləliklə peyvəndin müəyyən edilmiş dozalarını almış şəxslərdə yoluxma baş versə də xəstəliyi yüngül keçirməklə stasionar müalicəsinə ehtiyac qalmır, eləcə də ölüm riski baş vermir. Odur ki, birinci dozadan 28 gün sonra ikinci doza, ikinci dozadan beş ay sonra gücləndirici "Booster" doza vurulmalıdır.

COVİD-19 infeksiyası əleyhinə peyvəndə tibbi əks göstərişlər çox az saydadır və müvəqqətidir. İstisna meyarlarına əsasən hələlik uşaq yaşlarında olanlara peyvəndləşmə başlanmayıb. Peyvənd vurulan şəxslərdə daha əvvəl hər hansı vaksin, dərman, biopreparat və ya onların tərkibinə qarşı təsdiqlənmiş ağır allergik reaksiya müşahidə edildikdə peyvənd aparılmır. Digər vasitələrlə allergik reaksiyanın olması bu peyvəndə əks göstəriş deyil. Vaksinin dozası vurulduqda COVİD-19 xəstəliyi rəsmi təsdiq edilmiş şəxslərlə təmasda olanlara, hərarəti 37,2-dən yuxarı olan şəxslərə peyvəndləşmə müvəqqəti olaraq saxlanılır. Rəsmi olaraq COVİD-19 xəstələri ilə təmasda olanlara iki həftədən sonra peyvənd aparmaq məsləhət görülür.

Rayonda COVİD-19 peyvəndinin tətbiqi zamanı ciddi əlavə fəsadlara rast gəlinməmişdir. Peyvənddən sonra bəzən müşahidə olunan əlavə təsirlər yüngül olaraq qiymətləndirilir. Ölkəmizə gətirilərək əhaliyə eləcə də rayon əhalisinə kütləvi olaraq vurulan inaktivləşdirilmiş Çin peyvəndinin (SİNOVAK) heç bir əlavə təsiri olmamışdır. Bundan əlavə Almaniya istehsalı olan (Pfizer) diri vaksindən də istifadə olunur.

Peyvənddən sonra təsadüfi hallarda müşahidə olunan əlavə təsirlər yüngül olaraq qiymətləndirilir. Buraya yorğunluq, əzələ-oynaq ağrıları, baş ağrısı, peyvənd yeridilən nahiyədə ağrı, qızartı, şişkinlik ola bilər ki, bu təsadüfi olmaqla tez bir zamanda keçib gedir. Bu əlamətləri olan şəxslərə istirahət etmək, parasetemol tərkibli dərman qəbul etmək, iynə yerində qızartı, şişkinlik olduqda soyuq kompres qoyulması məsləhətdir.

Odur ki, vaksinasiya mərhələli şəkildə dünyada pandemiya başa çatanadək davam etdirilməli və hər kəs peyvənd olunmalıdır. Bunu hər birimiz yaxınlarımızın, bütün insanlarımızın həyat və sağlamlıqları üçün mütləq yerinə yetirməliyik .

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktor müavini.**